Vəqflər və İslam işləri Nazirliyi

# "Öz aralarında rəhmlidirlər..."

## Peyğəmbərin ﷺ əhli-beyti ilə səhabələri arasındakı mərhəmət

Şeyx Saleh ibn Abdullah əd-Dərviş

Tərcümə edən: Əbu Zəkəriyya

# Mərhəmətli və Rəhmli Allahın adı ilə!

## Təşəkkür

"Əhli-beyt və səhabələr birliyi" bu kitabı hazırlayarkən çəkdiyi əziyyətə görə möhtərəm qardaş və hörmətli şeyx Saleh ibn Abdullah əd-Dərvişə öz təşəkkür və ehtiramını bildirir.

Həmçinin, dəyərli oxucuların nəzərinə çatdırır ki, Elmi Araşdırmalar Mərkəzi "Əhli-beyt və səhabələr birliyi"nin ali məqsədlərinə xidmət edən çeşidli araşdırmalarla zəngindir.

Bundan əlavə, Mərkəzdəki İslam kitabxanasında olan müxtəlif kitablardan istifadə olunması mümkündür. Nöqsansız olan Allahdan diləyirik ki, əməyi olan hər kəsə ikiqat əcr versin, İslam ümmətini Uca Allahın kəlamı, Elçisinin ﷺ hidayəti və əhli-beytinin və səhabələrinin mübarək mənhəci üzərində cəm etsin... Amin.

# Mündəricat

Müqəddimə ........................................................5
Çağırış........................................................8
Rəsulullahın ﷺ səhabələrinin vəsfləri ........................................11
**Birinci bəhs.** Adlanmanın dəlaləti ........................................16
İslamda adın önəmi ........................................17
Heç mümkündürmü?........................................18
Münaqişə iddiası........................................20
Nəticə ........................................23
**İkinci bəhs.** Qohumluq ........................................24
Tarixdə qohumluq ........................................25
İslamda qohumluq........................................26
Xülasə. ........................................35
**Üçüncü bəhs.** Tərifin dəlaləti........................................37
Əhli-beyt barədə əhli-sünnənin mövqeyi ........................................45
Rəsulullahın ﷺ ailəsi deyildikdə kim başa düşülür? ............47
Rəsulullahın ﷺ ailəsi məsələsində əhli-sünnənin əqidəsi ......48
Əhli-beyt haqlarının təfsilatı ........................................50
Əhli-sünnə vəl-cəmaanın Nasibilər barədə mövqeyi ..............53
Dayanma ........................................57
**Son söz** ........................................59
**Əlavə.** Haşimi ailəsi ilə Cənnətlə müjdələnmiş on
səhabədən bəziləri arasındakı qohumluq əlaqələri .....64

# Müqəddimə

Şübhəsiz ki, həmd Allaha məxsusdur, biz Ona həmd edir, Ondan yardım diləyirik. Nəfsimizin şərindən Allaha sığınırıq. Allah kimə hidayət versə, o kəs hidayətə çatar, kimi də azdırarsa, onu hidayətə yönəldən olmaz.

Sonrasına gəlincə...

Şəkk yoxdur ki, Rəsulullah ﷺ Adəm övladının ağasıdır. Bu bütün İslam əhlinin üzərində ittifaq etdiyi bir məsələdir. Bu ittifaqın özü bu ümmətə verilmiş ən böyük nemətdir. Allaha həmd və şükürlər olsun.

Bu məsələdə bəzilərinin, imamları elmi və digər məsələlərdə[1] Allahın Elçisindən ﷺ daha üstün saymasının heç bir əhəmiyyəti yoxdur. Çünki bəzi kitablarda yer almış bu mövzulu rəvayətləri alimlər ya başqa mənaya yozmuş, ya da zəif hesab etmişlər.

Rəsulullahın ﷺ mənzilinin və məqamının aydınlığı, onun böyük şəfaətə və hovuza sahib olması,

---

[1] əl-Məclisi “Bihar əl-ənvar” əsərində belə bir bab qeyd etmişdir: “İmamların peyğəmbərlərdən daha əfzəl olmaları barədə bab” (2-ci cild, 82-ci səhifə). Başqa bir mənbə: “Usul əl-kafi”, 1-ci cild, 227-ci səhifə.

habelə onun həm bu dünyada, həm də axirətdə uca məqama sahib olması kimi həqiqətləri heç kəs inkar etmir.

Allahın Elçisinin ﷺ bərəkətləri qohumları olan əhli-beytinə və səhabələrinə də sirayət etmişdir. Allah onlardan razı olsun.

Bəli, əhli-beytin məqamı çox yüksəkdir. Bunu bəyan edən bir sıra ayələr və mütəvatir hədislər mövcuddur. Bu, onlardan Rəsulullaha ﷺ səhabəlik edənlərə, onların zürriyyətlərinə şamil olunur. Burada da məhz onların fəzilətləri və məqamları qeyd olunacaqdır.

Həmçinin səhabələr barəsində varid olanlar da – çünki bu, ilk öncə əhli-beytdən Allahın Elçisinə ﷺ səhabəlik etmiş olanlara şamil olunur.

Birinci risalədə Rəsulullahın ﷺ səhabələri barəsində söhbət açmışdım. Hazırki risalədə isə bu səhabələr arasındakı mərhəmətdən söz açacağam. Allah onların hamısından razı olsun.

Bizlər Rəsulullahın ﷺ səhabələrindən və onların fəzilətlərindən söhbət açmaqdan gərək heç usanmayaq. Onlar iman gətirib Allahın Elçisinə ﷺ dostluq etməklə "səhabə" adını qazanmışlar. Bununla da, əməlləri və peyğəmbərlərin ən şərəflisi ﷺ ilə birlikdə apardıqları

cihadları sayəsində onların Nəim cənnətlərindəki dərəcələri və məqamları da fərqli olmuşdur. Həmçinin, bu dünyada da Yer üzündəki mühacir, ənsar və onlardan sonra gələnlər kimi məqamları da fərqlidir. Allah onların hamısına sonsuz nemət vəd etmişdir. Uca Allah buyurur: **"Sizlərdən *Məkkənin* fəthindən əvvəl xərcləyib döyüşənlər *başqaları ilə* eyni deyillər. Onların dərəcəsi *mallarını fəthdən* sonra xərcləyib döyüşənlərdən daha üstündür. Amma Allah onların hamısına ən gözəl olanı vəd etmişdir. Allah sizin nə etdiklərinizdən xəbərdardır"** (əl-Hədid, 10).

Bəli, hər birinin öz fəziləti və öz məqamı vardır. Bizlər səhabə olmağın necə əzəmətli bir iş olduğunu dərk etməliyik. Onların məqamlarının ucalığı isə əməllərinə görədir. Onlar bir neçə təbəqədirlər:

**Hamını ötüb keçənlər**. Onlar ən yüksək təbəqədə olanlardır.

**Həm səhabə, həm də əhli-beytdən olanlar**. Onlar pak əhli-beytdir – onlara salam olsun və Allah onlardan razı olsun. Onlar həm səhabə, həm də əhli-beyt haqqına malikdirlər. Onların da məqamı əməllərinə görə fərqlənir.

Hörmətli oxucu! Ümmətin parçalanma səbəbləri və onun müalicəsi şəri bir tələbdir. İndi mən böyük bir məsələdən söhbət açıram, elə bir məsələ ki, onun

təsirləri ümməti ağuşuna almışdır. Bu risalədə mən Peyğəmbərin ﷺ səhabələri ilə əhli-beyti və digərləri arasında olan münasibətlərdən müxtəsər şəkildə söhbət açacağam. Onların arasında hətta döyüşlər olsa belə, onlar öz aralarında rəhmli idilər. Hekayə danışanlar və rəvayətçilər bu barədə sussalar da, bu danılmaz bir həqiqətdir və bu həqiqət daim parlayacaq və düz yoldan azanların, siyasətə tamah salanların və düşmənlərin bir sıra əfsanə və xəyallarını puç edəcəkdir. Əsrlər boyu onlar öz maraqlarını həyata keçirmək üçün ümmət arasında təfriqə və ixtilaf yaratmağa çalışmışlar.

**Çağırış!**

Ümmətin tarixini araşdıranlara, yazarlara, birliyə və vəhdətə çağıranlara.

Qloballaşmanın və onun təsirlərinin təhlükəsindən danışanlara, habelə buna qarşı mübarizə üçün birliyin vacibliyini vurğulayanlara.

Ümmətin hər bir qeyrətli adamına səslənirəm: – Axı nə üçün bizlər araşdırmadan, baxmadan mənfi təsirə və ədavətə səbəb olan tarixi məsələləri yayırıq?! Bunun məqsədi ətrafına avam camaat toplamaq, kortəbii təqlid və maddi mənfəət əldə etmək deyilmi?!

Təəccüblüdür ki, bir çox yazarlar, araşdırmaçılar uzun-uzadı vaxtlarını sərf edərək zəif və uydurma rəvayətlərə əsaslanan tarixi məsələləri araşdırmaqla məşğuldurlar. Bununla onlar hətta yaxşı iş gördüklərini sanır və elmi həqiqətlər əldə etdiyini güman edirlər. Əslində isə onların nail olduqları ümmətin parçalanmasına xidmət edir. Əgər onlardan gördüyü işin faydası barədə soruşsan, tutarlı bir cavab tapmayacaqlar. Ən yaxşı halda biri deyəcək ki, bunu elm naminə edirəm, vəssalam! Bəs söykənməli olduğun elmi əsas haradadır?!

Səhabələrlə bağlı olan risaləmdə Rəsulullahla ﷺ möhtərəm səhabələri arasındakı bağlılıqdan söhbət açılmış və bildirilmişdi ki:

– Rəsulullahın ﷺ vəzifələrindən biri də ona iman gətirmiş savadsız bir toplumu tərif etmək idi. Həmin şəxslər savadsız olsalar belə, Uca Allah onları Allahın Elçisinə ﷺ iman gətirməyə müvəffəq etmişdi. Uca Allah buyurur: **“Savadsızlara özlərindən elçi göndərən Odur. *Elçi* onlara *Allahın* ayələrini oxuyar, onları *pis əməllərdən* təmizləyər, onlara Kitabı və Hikməti öyrədər. Halbuki onlar əvvəllər açıq-aydın azğınlıq içində idilər”** (əl-Cümə, 2).

– Onları rəhmət və hidayət peyğəmbəri ﷺ tərbiyə etmiş, tərifləmiş və öyrətmişdir.

– öndər peyğəmbərlə ﷺ əsgərləri arasındakı bağlılıq barədə söhbət açılmışdı.

– Rəsulullah ﷺ və ondan öyrənənlər nümunədirlər.

– Rəsulullah ﷺ onunla yanaşı yaşayanlarla birlikdə qonşu idi.

– səhabələr Rəsulullahın ﷺ rəhbərliyi altında yaşayırdılar.

Birinci risalədə bu bağlılıqdan söhbət açılmışdı.[2]

Hörmətli oxucu. Şəkk yoxdur ki, Rəsulullah ﷺ Uca və Nöqsansız Allahın ona verdiyi göstərişləri ən gözəl şəkildə həyata keçirmişdir. O, risaləni çatdırmış, səhabələrini islah edərək onları öyrətmişdir. Həmin islahın bir göstəricisi də səhabələrdə cəm olan gözəl əxlaqi keyfiyyətlər idi. Allah onlardan razı olsun.

Təkcə onların insanlar üçün çıxarılmış ən xeyirli ümmət olmaları fəziləti kifayət edər. Uca Allah buyurur: **“Siz insanlar üçün üzə çıxarılmış ən xeyirli ümmətsiniz...”** (Ali İmran, 110).

Ayədə Uca Allahın **“çıxarılmış”** kəlməsi barədə düşün: onları çıxaran və bu məqama layiq edən kimdir? Başqa bir ayədə Uca Allah buyurur: **“Beləliklə,**

---

[2] Birinci risaləm belə adlanır: “Rəsulullahın ﷺ dostluğu”.

**Biz sizi orta bir ümmət etdik ki, siz insanlara şahid olasınız, peyğəmbər də sizə şahid olsun...”** (əl-Bəqərə, 143).

Uca Allahın Quranda onları vəsf edib tərifləyən ayələri olduqca çoxdur. Onlarla bağlı nazil olunmuş bəzi ayələri artıq zikr etdiyimizə görə təkrarlamağa lüzum yoxdur.

## Rəsulullahın ﷺ səhabələrinin vəsfləri

Hörmətli oxucu.

Unutma ki, onlar əvəzolunmaz bir nəsil idi və heç kəsin əldə edə bilməyəcəyi keyfiyyətlərə malik idilər. Onlar Allahın Elçisinə ﷺ dost olmaq şərəfinə nail olmuşlar. Rəsulullah ﷺ da onlara tərbiyə vermiş, öyrətmiş, ədəb-ərkanı başa salmış, onlarla birlikdə kafirlərə qarşı cihad aparmış, onlar da ona yardım etmişlər.

Bu vəsflərdən birinin üzərində dayanmaq istəyirəm ki, onun öyrənilməsi və açıqlanaraq qeyd olunması gərəkdir. Çünki məzhəbindən və firqəsindən asılı olmayaraq, bütün müsəlmanlar bu barədə məlumatlı olmalıdır.

Bilirsənmi həmin vəsf nədir? – Mərhəmət.

Sual: Nə üçün bu vəsf barəsində danışılmalıdır?

Hörmətli oxucu, heç bu əziz vəsfin sirri barəsində düşündünmü? Şübhəsiz ki, sən bu barədə danışmaq üçün çox səbəblər tapacaqsan. Lakin mən burada qısaca olaraq bir neçə səbəbi qeyd edəcəyəm.

**Birinci səbəb.** Bu, elə həmin vəsf, onun mənaları, bu xüsusda bəşəriyyətin ən xeyirlisindən (ona, pak ailəsinə və xeyirli səhabələrinə Allahın salavatı və salamı olsun) varid olmuş rəvayətlərlə bağlıdır. Uca və Nöqsansız Rəbbimiz Rəhmli və Mərhəmətlidir.

Uca Allah sevimli Peyğəmbərini ﷺ vəsf edərək buyurur: **"Sizə özünüzdən elə bir Elçi gəldi ki, sizin əziyyətə düşməyiniz ona ağır gəlir. O sizə qarşı qayğıkeş, möminlərə şəfqətli, rəhmlidir"** (ət-Tövbə, 128).

Həmçinin Peyğəmbər ﷺ demişdir: *"Rəhm etməyənə rəhm olunmaz"*. Hədisi Buxari və Muslim rəvayət etmişlər.

Bu vəsflə əlaqəli hədislər olduqca çoxdur və bunlar sənə bəllidir.

**İkinci səbəb**. Uca və Nöqsansız Allah Öz Elçisinin ﷺ səhabələrini tərifləyərkən bu vəsfi işlətmişdir. Başqalarının deyil, məhz bu vəsfin seçilməsinin özünəməxsus böyük hikmət və faydaları vardır. Hətta onlara bu vəsfin verilməsi elmi bir möcüzədir.

Bu barədə dərindən düşünən kəs həmin möcüzəni dərk edə bilər. Çünki ayədə onların arasındakı rəhmət sifəti xüsusi olaraq zikr olunmuşdur.

Bəs nə üçün Allah başqa vəsfləri deyil, məhz həmin sifəti qeyd edir?! Çünki həmin vaxt onların arasında baş vermiş anlaşılmazlıqlar ilə bağlı kitablar hələ yazılmamışdı. Həmin rəvayətlər bəzi hekayə danışanlar və onlardan sonra gələn xəbislər tərəfindən hədis kimi uydurulmuşdur.

Uca Allah buyurur: **“Muhəmməd Allahın Elçisidir. Onunla birlikdə olanlar kafirlərə qarşı sərt, öz aralarında isə mərhəmətlidirlər. Sən onları rüku edən, səcdəyə qapanan, Allahdan lütf və razılıq diləyən görərsən”** (əl-Fəth, 29).

**Üçüncü səbəb.** Bu həqiqətin, yəni səhabələrin öz aralarında rəhmli olmalarının təsdiqi, onların qəlblərində rəhmət sifətinin kök atması faktı Rəsulullahın ﷺ səhabələrinin bir-biri ilə amansız davranması, üstəlik bir-birilərinə düşmən kəsilməsi ilə bağlı varid olmuş nağıl və əfsanələri rədd etmiş olur.

Bəli, əgər sən səhabələrin öz aralarında mərhəmətli olduqları qənaətinə gəlsən və bu sənin qəlbinin dərinliyinə sirayət etmiş olsa, ürəyin rahat olacaq və Uca Allahın buyurduğu kimi, onlara qarşı qəlbindəki kin-küdurət aradan qalxmış olacaqdır. Uca Allah

buyurur: ***"Səhabələrdən* sonra gələnlər deyirlər: "Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən də, Sən Şəfqətlisən, Rəhmlisən!"** (əl-Həşr, 10).

**Dördüncü səbəb.** Tədqiqatçıların əsas işlərindən biri mətnlərin sənədinə diqqət yetirmələri, yalnız sənədlərin etibarlı olduğu təqdirdə mətnlərin araşdırılmasına cəhd etmələridir. Bundan sonra həmin rəvayətlərə Quran və İslamın ümumi əhkamları prizmasından baxılır. Həmçinin, rəvayətlərin cəm olunması məsələsinə də dərin elmə malik olan şəxslər baxa bilərlər.

Tarixi rəvayətlərin sənədləri tədqiq edilərkən də araşdırmaçılar bu cür yanaşma metodunu tutmalıdır. Lakin əfsuslar olsun ki, tədqiqatçılar isnadları araşdırmadan tarix və ədəbiyyat kitablarındakı rəvayətlərlə kifayətlənmişlər. Onlardan kimisi sənədlərlə maraqlanıbsa belə, mətnlərin Quranla ziddiyyət təşkil etdiyinə fikir verməmişdir.

Hörmətli oxucu. Hökm verərək ittihamlar irəli sürməmişdən, dədə-baba məlumatlarına və dini qısqanclıqdan doğan emosiyalara uyaraq hökm çıxarmamışdan öncə burada qeyd etdiyim olduqca aydın olan

dəlillərə nəzər sal. Onlar olduqca tutarlı, ağlabatan və reallıqlara əsaslanan Qurandan olan dəlillərdir. “əl-Fəth” surəsinin sonuncu (29-cu) ayəsində Uca Allah buyurur: **“Muhəmməd Allahın Elçisidir. Onunla birlikdə olanlar kafirlərə qarşı sərt, öz aralarında isə mərhəmətlidirlər. Sən onları rüku edən, səcdəyə qapanan, Allahdan lütf və razılıq diləyən görərsən. Əlamətləri isə üzlərində olan səcdə izidir. Bu onların Tövratdakı vəsfidir. İncildə isə onlar elə bir əkin kimi vəsf olunurlar ki, bu** ***əkin*** **cücərtisini üzə çıxarıb onu qüvvətləndirmiş, o da getdikcə qalınlaşıb gövdəsi üstündə şax duraraq əkinçiləri heyran etmişdir.** ***Allah möminlərin sayını artırır, özlərini də qüvvətləndirir*** **ki, kafirləri qəzəbləndirsin. Allah onlardan iman gətirib yaxşı işlər görənlərə bağışlanma və böyük bir mükafat vəd etmişdir”**.

Həmçinin buyurur: ***“Səhabələrdən*** **sonra gələnlər deyirlər: “Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən də, Sən Şəfqətlisən, Rəhmlisən!”** (əl-Həşr, 10).

Ayələri diqqətlə oxu və mənaları barəsində düşün! Bu işdə Allah yardımçın olsun.

# BİRİNCİ BƏHS

## Adlanmanın dəlaləti

Adlar onları daşıyanlara işarədir.

Ad insanı başqalarından fərqləndirən bir ünvandır. İnsanlar da bu ənənəyə əməl etmişlər. Aqil olan kəs adın önəmini bilir, belə ki, uşaq adı ilə tanınır, qardaşlarından və digər uşaqlardan bununla seçilir. Sonradan da ad onun və övladlarının bir rəmzinə çevrilir. Hətta insan öldükdən sonra da adı qalır.

Ad sözü ərəb dilində ucalıq və ya əlamət sözündəndir.

Bütün bunlar həm də uşağa ad verilməsinin önəminə dəlalət edir. Uşağa ad verilməsinin önəmi hər kəsə bəllidir. Həmin ad onun dininə və ağılına dəlalət edir. Heç eşitmisənmi ki, yəhudi və xaçpərəstlər öz övladlarına Muhəmməd adı versinlər?!

Yaxud da eşitmisənmi ki, müsəlmanlar övladlarına, istisna halları xaric olmaqla, Lat və ya Üzzanın adını versinlər?

Övlad öz atasına adı vasitəsilə bağlanır, valideyinlər və ailə üzvləri də övladlarını qoyduqları adla çağırırlar. Beləcə, adlar ailə üzvləri arasında daha çox

işlənir. Əvvəllər deyərdilər ki, “Adından atanın kim olduğunu bilərəm”.

**İslamda adın önəmi.**

Adların önəmini bilmək üçün şəriətin bu məsələyə nə qədər diqqət yetirdiyini görmək kifayətdir. Rəsulullah ﷺ bəzi səhabə kişi və qadınların adlarını dəyişdirmişdi. Hətta Peyğəmbər ﷺ öz şəhərinin adını Yəsribdən Mədinəyə dəyişdirmişdir. Həmçinin Rəsulullah ﷺ “Mülklərin sahibi” və s. bu kimi adların qoyulmasını da qadağan edib. Rəsulullah ﷺ demişdir: *“Allah yanında adların ən pisi Mülklərin sahibidir”*. Həmçinin o, Abdullah, Abdurrahmən və buna bənzər başqa gözəl adların qoyulmasına təşviq etmişdir. Həmin adlar İzzət və Cəlal Sahibinə bəndəliyə və insanın Allaha qul olmasına dəlalət edir.

Rəsulullah ﷺ demişdir: *“Allaha ən xoş gələn adlar Abdullah və Abdurrahməndir”*. Allahın Elçisi ﷺ Həsən adını xoşlayardı – bunu onun haqqında oxumaqla bilmək mümkündür.

Dil və üsul alimlərinə görə adların dəlaləti və mənaları vardır. Dil və fiqh üsulu kitablarında bu məsələni araşdırmaq mümkündür. Alimlər bununla bağlı məsələləri bir sıra yönlərdən araşdırmışlar.

**Heç mümkündürmü?**

Hörmətli oxucu, tələsmə və təəccüblənmə. Gəl mənimlə birlikdə aşağıdakı suallara cavab tapmağa çalışaq:

Övladına nə ad verərsən? Övladına sənin, anasının və ailə üzvlərinin sevdiyi bir adı seçməzsənmi? Heç övladına düşmənlərindən birinin adını verərsənmi?

Sübhanallah! Biz özümüzə mənası və dəlaləti olan adlar seçdiyimiz halda, ən xeyirli insanlar barəsində bunu inkar edərək deyirik ki, "Yox! Onlar siyasi və ictimai səbəblərdən insanların adət etdiyi tərzdə övladlarına həmin adları vermişlər. Onların həmin adları nə səbəbdən seçmələrinə heç bir dəlil yoxdur! Ümmətin aqil kəsləri və rəhbərləri ən bəsit insanlıq mənalarından məhrum olublar. Onlara icazə verilməyib ki, övladlarına sevdikləri şəxslərin, fəzilətlərini və onlara sevgilərini etiraf etdikləri qardaşlarının adlarını versinlər. Əksinə, öz övladlarına öz düşmənlərinin adlarını qoymuşlar!" Siz buna inana bilərsinizmi?

Onu da bilirik ki, ad bir şəxsə aid deyil, bir sıra övladlara aid olur. Bu adların əsrlər sonra ədavət unudulduqdan sonra deyil, "düşmənçiliyin" ən pik vaxtlarında qoyulduğu iddia olunur. Bu da elə bir

məsələdir ki, öyrənilməli və diqqət göstərilməlidir. Çünki bunda olduqca böyük mənalar vardır. Bu məsələ bir sıra əfsanələri, fikirləri və xəyali hekayələri rədd edir. Bu məsələ insanın özü ilə danışmasına və aqil insanları qane etməsinə səbəb olur. Bunu inkar etmək, yaxud qəbul etməmək mümkünsüzdür.

İndi isə çatdırmaq istədiyimizi sənə təqdim edirik:

1-3. Həzrəti Əli رضي الله عنه özündən əvvəlki üç xəlifəni o qədər çox sevirdi ki, bəzi övladlarına onların adını vermişdi. Onlar aşağıdakılardır:

– Əbu Bəkr ibn Əli ibn Əbu Talib: qardaşı Hüseynlə birlikdə Kərbəlada şəhid düşmüşdür. Onlara və babalarına salavat və salam olsun.

– Ömər ibn Əli ibn Əbu Talib: qardaşı Hüseynlə birlikdə Kərbəlada şəhid düşmüşdür. Onlara və babalarına salavat və salam olsun.

– Osman ibn Əli ibn Əbu Talib: qardaşı Hüseynlə birlikdə Kərbəlada şəhid düşmüşdür. Onlara və babalarına salavat və salam olsun.

4-6. Həzrəti Həsən رضي الله عنه övladlarına Əbu Bəkr ibn Həsən, Ömər ibn Həsən, Talhə ibn Həsən adlarını vermişdi. Onların hamısı Kərbəla vaqiəsində əmiləri Hüseynlə birlikdə olmuşlar.

7. Həzrəti Hüseyn رضي الله عنه də övladına Ömər ibn Hüseyn adını vermişdir.

8-9. Tabiinlərin ağası, dördüncü imam Əli ibn Hüseyn Zeynul-abidin رضي الله عنه öz qızına Aişə, oğluna isə Ömər adını vermiş, onun da övladları olmuşdur.[3]

Həmçinin əhli-beytin digər nümayəndələri və Abbas ibn Əbdulmuttalibin رضي الله عنه nəsli, Cəfər ibn Əbu Talibin رضي الله عنه nəsli, Muslim ibn Əqilin رضي الله عنه nəsli və başqalarını da misal çəkmək olar. Biz burada onların hamısının adlarını toplamağı hədəf seçməmişik. Sadəcə məqsədimizə dəlalət edən sayda qeyd etmək istəmişik. Əli رضي الله عنه, Həsən رضي الله عنه və Hüseynin رضي الله عنه övladları barədə isə artıq danışmışıq.

## Münaqişə iddiası

Bəziləri Əli رضي الله عنه və övladlarının (onlara salam olsun) öz övladlarına bu adları verdiklərini inkar edir. Bunu isə yalnız adlar və ləqəblərdən xəbərsiz olan və məhdud sayda kitab oxumuş kəs iddia edə

[3] “Kəşf əl-ğummə” əsəri, 2/334; “əl-Fusul əl-muhimmə”, 283. Həmçinin, 12 imamdan digərləri də öz övladlarına bu adları vermişlər. Misal üçün bax: ət-Təbrasi, “Əalam əl-vara” əsəri, 203; “İrşad əl-mufid”, 186; Yaqubi, “Tarix”, 2/213.

bilər. Allaha həmd olsun ki, onların sayı olduqca azdır. Bir çox alimlər onlara rəddiyyə vermişlər, çünki bu adların mövcudluğuna açıq-aydın və real dəlillər vardır. Həmin dəlillər onların zürriyyətindən və mötəbər kitablardan bizlərə gəlib çatmışdır. Hətta Kərbəla hadisəsi ilə bağlı rəvayətlərdə də bu öz əksini tapmışdır. Belə ki, İmam Hüseynlə رضي الله عنه şəhid olanların arasında Əbu Bəkr ibn Əli ibn Əbu Talib və Əbu Bəkr ibn Həsən ibn Əli və digər adı çəkilənlər də var idi.

Bəli, onlar Hüseynlə birlikdə şəhid olmuşlar. Bu hadisə barədə yazılmış kitablarda da bunlar qeyd olunmuşdur. Sonra demə ki, sən bu adları eşitməmisən. Onların qeyd olunmaması isə ümumiyyətlə olmamasına dəlalət etmir. Ömər ibn Əli ibn Əbu Talib və Ömər ibn Həsən həmin gündə imtahanla üzləşmiş cəngavərlərdən idilər.

Əlqərəz, imamların (onlara salam olsun) öz övladlarına Əbu Bəkr, Ömər, Osman, Aişə və başqa böyük səhabələrin adlarını verməsi məsələsinə qənaətbəxş bir təkzib verə bilən kimsə tapa bilmədik. Axı adlar öz mənalarına dəlalət edir. Həmçinin, məsələni yalana çevirmək də mümkün deyil. Çünki bu, əksər kitablarda yer alan bütün mötəbər rəvayətlərin inkar olunması anlamına gəlir. Hər hansı bir tayfaya xoş gəlməyən hər bir rəvayət haqqında onun yalan və uydurma

olduğu bildirilə bilər. Alimin nəfsinin istəyinə uyğun gəlməyən hər hansı bir rəvayət barədə onun uydurma olması deyilə bilər! Ələlxüsus da, hər bir alimin rəvayətləri qəbul edib-etməmək səlahiyyəti var ikən, bu mümkündür. Çünki bunun onlarda xüsusi bir qaydası yoxdur. Həmçinin, bəziləri çox gülməli bir cavab verərək bu adların məhz söyülmək məqsədi ilə qoyulduğunu bildirmişlər!!! Həmçinin, demişlər ki, bu adlar camaatın razılığına nail olunması üçün qoyulmuşdur. Yaxud imam öz övladlarına həmin adları ona görə veribmiş ki, insanlara xəlifələri sevdiyini izhar etmiş olsun – yəni təqiyyə etsin!!!

Sübhanallah. Biz necə deyə bilərik ki, imam bəzi əməlləri ona görə edir ki, onunla dostlarını və insanları aldatsın? Axı imam bunun üçün öz zürriyyətinə necə zərər verə bilər? Görəsən imamın aldatmaq istədiyi bu adamlar kimlərdir? Axı onun şücaəti də, gücü də özünü və övladlarını Teym, Udey və ya Bəni Umeyyəyə görə bu şəkildə alçaltmağa imkan verməz. İmamın həyatını öyrənən kəs yəqinliklə başa düşür ki, o, olduqca şücaətli və qorxmaz birisi olmuşdur. Onun qorxaq olması barədə varid olmuş bəzi uydurma rəvayətlər isə onun dininə və məqamına uyğun gəlmir. Əfsuslar olsun ki, bu cür rəvayətlər çoxdur.

**Nəticə.**

İmamların, o cümlədən Əli ﷺ və övladlarının (onlara salam olsun) etdikləri əməllər əhli-beytlə raşidi xəlifələr arasında mövcud olan məhəbbətin ülviliyinə əqli, nəfsi və reallıq baxımından ən güclü dəlillərdən hesab olunur. Sən özün də bu reallığı yaşamaqdasan və bunu inkar etmək mümkün deyil. Bu reallığı Uca Allahın bu ayəsi də təsdiqləyir: **"Muhəmməd Allahın Elçisidir. Onunla birlikdə olanlar kafirlərə qarşı sərt, öz aralarında isə mərhəmətlidirlər. Sən onları rüku edən, səcdəyə qapanan, Allahdan lütf və razılıq diləyən görərsən. Əlamətləri isə üzlərində olan səcdə izidir"** (əl-Fəth, 29).

Hörmətli oxucu. Bu ayəni təkrar-təkrar oxu və mənaları barədə düşün, sonra da mərhəmət vəsfi barədə düşün.

# İKİNCİ BƏHS

## Qohumluq

Hörmətli oxucu. Hər bir kişinin ciyərparəsi onun qızıdır. Bəs sən öz ciyərparəni kimə verərsən? Razı olarsanmı ki, qızını günahkar və cinayətkar birisinə verəsən? Qızını onun anasının və bacısının qatilinə ərə verərsənmi? Kürəkən və yeznə sözləri sənin üçün hansı mənanı daşıyır?

Qohumluq sözü ərəb dilində *sahəra* felindəndir. Bir qövmdən qız alıb, yaxud qız verdikdə onlarla qohum olursan. Bu haqda əl-Əzhəri belə demişdir: "*əs-Sıhr* sözü məhrəm qadınlara, valideyinlərə və qardaş-bacıya və s. şamil olunur. Kişinin qohumları xanımının yaxınları, qadının qohumları isə kişinin yaxınlarıdır.

Xülasə, *əs-Sıhr* sözü qadının qohumlarına deyilir. Bəzən də kişinin qohumları belə adlanır. Uca və Nöqsansız Allah ayələrin birində buyurur: "**Sudan insan yaradan, ona qan qohumları və sonradan qohum olanları bəxş edən Odur. Rəbbin *hər şeyə* Qadirdir" (**əl-Furqan, 54).

Bu ayə barəsində düşün, gör Allah insanı başqa bir insanla necə qohum edir. Bu cür qohumluq qan qohumluğuna tay olan şəri bir bağlılıqdır. Ərəbcə *nəsəb* sözü ata tərəfdən qohumluq hesab olunsa belə, bəzi alimlər bu kəlməni ümumən qohumluğa şamil etmişlər.

Unutma ki, Allah bu iki qohumluq əlaqələrini birgə qeyd etmişdir.

**Tarixdə qohumluq.**

Ərəblərdə qohumluğun özünəməxsus yeri vardır. Onlar qohumluq əlaqələri ilə fəxr edərdilər. Həmçinin, kürəkənləri və onların məqamları ilə fəxr etmək də buna aiddir. Ərəblər özlərindən aşağı səviyyədə gördükləri şəxsə öz qızlarını ərə verməzlər. Bu hal onlarda məşhurdur. Hətta bəzi qeyri-ərəblərdə də bu adət vardır. Bu səbəbdəndir ki, günümüzdəki bu ayrıseçkilik Qərbdə ən böyük ictimai problemlərdən biri hesab olunur.

Əvvəlki ərəblər qadınlarını çox qısqanardılar. Hətta onların bir qismi utandıqlarından öz qızlarını diri-diri dəfn edərdilər. O zamanlar bu səbəbdən münaqişələr baş verər, qanlar axıdılardı. Hörmətli oxucu, bu xüsusda uzun-uzadı danışmağa dəyməz.

Bunun təzahürləri günümüzə qədər gəlib çatmışdır və bunlar sənə də məlumdur.

**İslamda qohumluq.**

İslam gəldikdən sonra hər şeyin ən gözəlini və ali olanını üzə çıxardı, pislikləri isə qadağan etdi. Uca və Nöqsansız Allah təqvanın əsas olduğunu bildirərək buyurur: **“Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır”** (əl-Hucurat, 13). Bu da şəriətin tərəzisi ilədir.

Göründüyü kimi, alimlər (Allah onlara rəhmət eləsin) dində və qohumluqda layiqlik məsələsini geniş araşdırmışlar. Hətta layiqlik məsələsini nikahın şərtlərindən birinə çevirmişlər. Araşdırmışlar ki, ərin qadını hər şeylə təmin etməsi onun haqqıdır, yoxsa yox. Bütün bu məsələlərə nikah ilə bağlı əsərlərdə geniş yer verilmişdir.

Namusun qorunması və qadınları qısqanmaq məsələsinə gəlincə, Peyğəmbər ﷺ namusunu qoruyarkən öldürülən şəxsi şəhid adlandırmışdır. Hətta Peyğəmbər ﷺ müsəlman bir qadına görə əhdlərini pozmuş yəhudi Bənu Qureyza qəbiləsi ilə apardığı döyüşə şəxsən komandanlıq etmişdir. Bu barədə varid olmuş əhvalat məşhurdur. Həmin əhvalatın

xülasəsi belədir ki, bir nəfər yəhudi ondan qızıl almaq istəyən müsəlman bir qızdan üzünü açmasını tələb edir, qız isə bunu rədd edir. O da qız oturmuş ikən, xəlvətcə onun libasının ucunu bağlamışdı. Qız qalxdıqda onun üzü açılmış və qışqırıb yardım istəmişdi. Yaxınlıqda olan bir müsəlman gənc də yaxınlaşıb həmin yəhudini qətlə yetirmişdi. Yəhudilər də toplaşıb həmin gənci qətlə yetirmişdilər. Bu və bu kimi hadisələr yəhudilərin hər dəfə əhdlərini pozmalarına dəlalət edir.

Hörmətli oxucu.

Nikahda vəlinin və şahidlərin olmasının vacibliyi, günahsız qadını zinada ittiham edənin cəzalandırılması, zinanın cəzası və buna bənzər namusun qorunması üçün mövcud olan digər müxtəlif şəri hökmlər barəsində də düşün.

Bu hökmlər və onlardakı hikmət barədə, habelə onlardakı möhtəşəm qanunlar barədə düşünsən, bu mövzunun əhəmiyyəti sənə daha da aydın olacaqdır.

Qohumluqla bağlı bir sıra əhkamlar vardır. Nikahın bağlanması ilə bağlı (böyük əhdləşmə) nişan və digər əhkamlar barədə də düşün.

**Ola bilsin ki, qəbul olunsun, ya da rədd olunsun.**

Nikahdan öncə kişi öz yaxınları və dostlarından yardım istəyir ki, qız tərəfinin razılığını alsın. Qadının yaxınları və ailə üzvləri də kişi haqqında soruşurlar. Sonra da onların haqqı var ki, təklifi qəbul və ya rədd etsinlər. Hətta oğlan hədiyyələr versə və ya mehri vaxtından əvvəl ödəsə belə, qız tərəfinin təklifi qəbul və ya rədd etmə haqqı vardır. Çünki nikah hələ bağlanmayıb.

Nikahın bağlanması üçün şahidlər də olmalıdır. Nikahın elan olunması da şəri bir tələbdir. Nə üçün? Çünki nikah bəzi əhkamlar üzə çıxarmış olur – uzaqları yaxınlaşdırır və onları qohuma çevirir. Kişiyə də bu nikah səbəbindən, qadın onun xanımı olduğu müddətdə bir sıra qadınlarla evlənməsi haram olur. Bu risalə bu mövzu ilə bağlı uzun-uzadı danışmağa imkan verməsə də, məqsəd qarşıda deyiləcəklərin başa düşülməsi üçün bu mövzunun əhəmiyyətinin qabardılmasıdır. İndi isə aşağıdakıları anlamağa çalış:

Həsənlə رضي الله عنه Hüseynin رضي الله عنه bacısını ataları Əli رضي الله عنه Ömər ibn Xəttaba رضي الله عنه ərə vermişdir. Necə deyə bilərik ki, Əli رضي الله عنه Ömərdən رضي الله عنه qorxduğu üçün qızını ona ərə vermişdir?! Bəs onun şücaəti haradadır? Bəs qızına sevgisi? Məgər o, öz qızını zalım birisinin yanında qoya bilərmi? Bəs Allahın

dininə olan qeyrəti harada qaldı? Buna bənzər bir sıra ardı-arası kəsilməyən suallar yaranır.

Əslində deməlisən ki, Əli رضي الله عنه Öməri رضي الله عنه bəyəndiyinə və ondan razı qaldğına görə qızını ona ərə vermişdir. Bəli, Ömər رضي الله عنه Rəsulullahın ﷺ nəvəsi ilə şəri səhih bir nikah bağlamışdı və buna heç bir şəkk-şübhə yoxdur.[4] Bu nikah iki ailə arasındakı yaxınlığın, əlaqənin və məhəbbətin mövcudluğuna aydın dəlildir. Niyə də olmasın ki? Axı Peyğəmbər ﷺ də Ömərin رضي الله عنه qızı ilə evlənmişdi. Yəni Ömər رضي الله عنه Ummu Kulsumla evlənməmişdən öncə də bu qohumluq mövcud idi.

İkinci misal. İmam Cəfər əs-Sadiqin رضي الله عنه aşağıdakı sözləri kifayət edər: “Əbu Bəkr məni iki dəfə dünyaya gətirmişdir”. Cəfər əs-Sadiqin anasının kim olduğunu bilirsənmi? – O, Fərva bint əl-Qasim bin Muhəmməd bin Əbu Bəkrdir.[5]

Ey ağıl sahibi! Bəs nə üçün Cəfər Əbu Bəkr dedi, Muhəmməd ibn Əbu Bəkrin adını çəkmədi? Cəfər

---

[4] Az sonra bu nikahın təsdiqi barədə alimlərin rəylərini də qeyd edəcəyik.

[5] Onun anası Əsma bint Abdurrahmən bin Əbu Bəkrdir. “Umdət ət-talibin” əsəri, 195-ci səhifə, Tehran nəşri. “əl-Kafi”, 1-ci cild, 472-ci səhifə.

ona görə Əbu Bəkrin adını çəkdi ki, bəzi azğınlar onun fəzilətini inkar edirdilər. Oğlu Muhəmmədə gəlincə isə, onun fəziləti barədə hər kəs ittifaq etmişdir. Səni and verirəm Allaha, indi de görüm, insan kiminlə fəxr etməlidir?!

Hörmətli oxucu. Mühacir və ənsar nəsəblərinin bir-birinə qarışmasını bu barədə elmi olan hər kəs gözəl bilir. Belə şərəfli qohumluqdan azad olunmuş kölələr də istisna deyildi. Belə ki, azad olunmuş kölələr də Qureyşin əsil-nəcabətli və hörmətli şəxsləri ilə evlənmişdilər. Budur, Zeyd bin Harisə yeganə səhabədir ki, onun adı Quranda "əl-Əhzab" surəsində qeyd olunur. Bəs onun zövcəsi kim idi? – O, möminlərin anası Zeynəb bintu Cəhş idi.

Həmçinin, Usamə bin Zeydi ﵁ Rəsulullah ﷺ Qureyşli Fatimə bint Qeyslə evləndirmişdi.[6] Digər azad olunmuş kölə Salimi də Əbu Huzeyfə qardaşı qızı Hind bint əl-Valid bin Utbə bin Rabiə ilə evləndirmişdi. Halbuki, onun atası Qureyşin zadəganlarından biri idi.[7]

---

[6] Muslim bu hədisi Fatimə bint Qeysdən ﵂ rəvayət etmişdir. Allah ondan razı olsun.

[7] Bu haqda Buxari Aişədən ﵂ rəvayət etmişdir.

Səhabələr arasındakı qohumluq əlaqələri barədə uzun-uzadı danışmaq olar. Mən isə əhli-beytlə raşidi xəlifələr arasındakı bəzi evlilik bağlarını misal çəkməklə kifayətlənirəm.

Bilirsənmi ki, həzrəti Ömər رضي الله عنه Rəsulullahın ﷺ qızı Fatimənin رضي الله عنها qızı ilə evlənmişdi? Ona və atasına Allahın salavatı və salamı olsun.

Cəfər əs-Sadiqin anası barədə söhbət açmışdıq. Bəs onun ulu nənəsi kim idi? – Onların hər ikisi Əbu Bəkr əs-Siddiqin رضي الله عنه nəvələri idi.

Hörmətli oxucu.

Şeytanın vəsvəsələrini tərk et və dərindən düşün. Sən müsəlmansan və ağlının məqamına bələdsən. Allahın Kitabında düşünməyə təşviq edən ayələr olduqca çox olsa da, burada onların qeyd olunmasına lüzum yoxdur.

Biz gərək ağlımızla düşünək və təqlidi tərk edək. İmkan verməyək ki, bəziləri bizim ağlımızla oynasın. Həm cinlərdən, həm də insanlardan olan şeytanın şərindən Eşidən və Görən Allaha sığınıram.

Sevimli oxucu. Razı olarsanmı ki, atan və babaların təhqir olunsun və deyilsin ki, xanımların ən üstünü qohumlarına rəğmən güclə ərə verilib? Razı

olarsanmı ki, desinlər: biz həmin qadını zorlamışıq?! Hansı ağıl məntiqə sığmayan bu fikri qəbul edər, hansı qəlb bu rəvayətlə rahatlıq tapar?! Allahdan diləyirik ki, qəlblərimizdə iman gətirənlərə qarşı kin qoymasın. Allahım, bizə əməlisaleh qullarını sevməyi nəsib elə! Ey aləmlərin Rəbbi olan Allah, dualarımızı qəbul et! Amin.

Üçüncü bəhsə keçmədən öncə onların mötəbər alimlərinin kitablarından Ömərlə Ummu Kulsum bint Əlinin evliliyinə dəlil olan mətnləri təqdim edək. Allah onların hər birindən razı olsun.

İbn Taqtaqi əl-Həsəni kimi tanınan İmam Safiy-yuddin Muhəmməd bin Tacəddin (709-cu ildə vəfat etmişdir) nəsəb alimi, tarixçi və imam Hülakunun dostu Useyluddin Həsən bin Nuseyriddin ət-Tusiyə hədiyyə etdiyi kitabda (kitabın adı da onun adı ilə bağlıdır) möminlərin əmiri Əlinin qızlarını qeyd edər-kən demişdir: “Ummu Kulsum – onun anası Rəsulul-lahın ﷺ qızı Fatimə idi. Ömər ibn Xəttab رضي الله عنه onunla evlənmiş və onların Zeyd, sonra da Abdullah və Cəfər kimi övladları olmuşdur” (səh. 58). Kitabı təhqiq edən Seyid Mehdi ər-Racəi bir sıra məsələləri nəql edib. Onlardan böyük alim Ömər ibn Əli ibn Hüseynə nisbət olunan Əbul-Həsən əl-Öməri “əl-Mucdi” əsərində demişdir: “Bu rəvayətlər arasında

etibarlı olanı, az öncə qeyd etdiyimiz kimi, Ömərin Abbas ibn Əbdulmuttalibin atasının razılığı və icazəsi ilə onunla evlənməsi idi. Ömərin ondan Zeyd adlı uşağı da olmuşdur”.

Təhqiqatçı bir sıra sözlər də qeyd etmişdir ki, onlardan Ömərin رضي الله عنه şeytanla evlənməsi, yaxud Ömərin onunla yaxınlıq etməməsi və ya onunla güclə evlənməsi və s. kimi fikirlərdir.

Böyük alim əl-Məclisi demişdir: “... Hadisənin əslinin inkar olunması həm də onlar tərəfdən bunun baş vermədiyini sübut etməkdən ötrüdür. Əks halda, həmin xəbərlər və qarşıda sənədlərlə qeyd olunacaq rəvayətlərdə deyilir ki, Ömər رضي الله عنه vəfat etdikdə Əli Ummu Kulsumun yanına gəlir və onu evinə aparır”. “Bihar əl-ənvar” əsərində buna bənzər başqa rəvayətlər də vardır. Bunun inkar olunması çox qəribədir, əslində isə cavab verilməlidir ki, bu zərurət və təqiyyə baxımından baş vermişdir...”[8].

Mən deyirəm: “əl-Kafi”nin müəllifi öz əsərində bu barədə bir neçə hədis qeyd etmişdir. Onlardan biri də “Əri ölmüş qadın gözləmə müddətini harada başa vurur və ona nələr vacibdir” babıdır. Həmid ibn Ziyad İbn Səmaədən, o da Muhəmməd ibn Ziyaddan, o da

---

[8] “Mirat əl-uqul” əsəri, 2-ci cild, 45-ci səhifə.

Abdullah bin Sinan və Muaviyə bin Ammardan Əbu Abdullahın belə dediyini rəvayət etmişdir: "Mən ondan soruşdum ki, əri dünyasını dəyişmiş qadın öz evində gözləməlidir, yoxsa harada istəsə, gözləyə bilər? Dedi ki, harada istəsə gözləyə bilər. Ömər vəfat etdikdə, Əli gəlib Ummu Kulsumu öz evinə aparmışdı".[9]

Hörmətli oxucu.

Bəzi müasirlərimə evlilik barədə xitab etdim, ən gözəl cavablardan biri də "Vəqflər və miraslar məhkəməsi"nin qazisi Şeyx Əbdülhəmid əl-Xittinin söylədikləridir:

"İmam Əlinin ﷺ öz qızını İslamın cəngavərinə ərə verməsi məsələsinə gəlincə, bu barədə etiraz etmirik, Rəsulullah ﷺ onun üçün gözəl bir örnək olmuşdur, Rəsulullah ﷺ hər bir müsəlman üçün gözəl örnək olmuşdur. Peyğəmbər ﷺ Əbu Sufyanın qızı Ummu Həbibə ilə evlənmişdi. Əbu Sufyan isə Ömər ibn Xəttabdan ﷺ qat-qat aşağı məqamda idi. Odur ki, bu evlilik barədə yayılan şübhələrin heç bir əsası yoxdur.

Sizin "Ömər ibn Xəttabın şeytanı surət alıb Ummu Kulsumu əvəz etmişdir" sözünüzə gəlincə,

---

[9] "Füru əl-Kafi" əsəri, 6-cı cild, 115-ci səhifə.

bu həm gülməli, həm də ağlamalı bir fikirdir. Bu barədə heç danışmağa və ya buna diqqət yetirməyə belə dəyməz.

Buna bənzər digər xürafatları araşdırsaq, onların bir tərəfdən gülməli, digər tərəfdən isə ağlamalı olduğunu görərik.”

Şeyx (Əbdülhəmid əl-Xittin) qohumluğa və ailə bağlılığına dəlalət etmə barədə araşdırma aparmayıb. Bu da onu göstərir ki, o, onların arasında məhəbbət, qardaşlıq və birlik əlaqələrinin mövcudluğu qənaətindədir.

Hörmətli oxucu, sənə sirr də deyil ki, müsəlmanın Kitab əhlindən qız alması caiz, Kitab əhlinin müsəlmandan qız alması isə qadağandır. Bu barədə yaxşıca düşün.

**Xülasə**

Peyğəmbərin ﷺ səhabələri arasındakı qohumluq əlaqələrinin mövcudluğu aydındır. Ələlxüsus da İmam Əlinin رضي الله عنه zürriyyəti ilə raşidi xəlifələrin zürriyyətləri arasında bu əlaqələrin olması bəllidir. Allah onlardan razı olsun. Həmçinin, Umeyyə oğulları ilə Haşimi oğulları arasında həm İslamdan öncə, həm də

İslam gəldikdən sonra qohumluq əlaqələri mövcud olmuşdur. Onlardan ən məşhuru Rəsulullahın ﷺ Əbu Sufyanın qızı ilə evlənməsidir. Allah onların hər birindən razı olsun.[10]

Burada məqsəd diqqəti bu qohumluq əlaqələrinin nəfsi və ictimai təsirlərinə yönəltməkdir. Qohumluqda əsas göstəricilərdən biri də qohumlar arasında məhəbbətin mövcud olmasıdır ki, bu barədə dəlillər olduqca çoxdur. Yəqin ki, qeyd etdiklərimiz qeyd etmədiklərimizə nisbətdə kifayət edir. Müvəffəq edən Allahdır.

---

[10] Bu barədə kitabın sonundakı əlavəyə bax.

# ÜÇÜNCÜ BƏHS

## Tərifin dəlaləti

Hörmətli oxucu. Sən heç yaxınlarınla, həmkəndlilərinlə birgə qürbətdə yaşadınmı? Həmin qürbət illərini necə yaşamısan? Sən heç onlarla və ya sevdiklərinlə hərbi düşərgədə olmusanmı?

Əziz oxucu. Heç birlikdə olduğun dostlarınla kasıb vəziyyətdə, ancaq ağılla hissi cəm edən əqidə birliyi içərisində yaşamısanmı? Belə bir vəziyyətdə yaşadığın kəs haqqında sənin fikirlərin nədir?

Səhabələr həm sevinc, həm kədər anlarında dost olmuş, hətta bəşəriyyətin ən xeyirlisi Muhəmməd ﷺ onlarla birlikdə olmuşdu. Peyğəmbərin ﷺ səhabələri, xüsusən də ilk öncə İslamı qəbul edənlər bax həmin vəziyyətdə yaşamışlar. Bəli, onların ictimai həyatları müxtəlifdir və onun xüsusi təbiəti vardır. Peyğəmbərin ﷺ həyat yolunu öyrənmiş, yaxud bununla maraqlanan hər kəs bunları gözəl bilir.

Hörmətli oxucu. Bu sətirləri oxuduqca, yəqin ki, sən də mənimlə birlikdə tarixin dərinliklərinə baş vurursan. Peyğəmbər ﷺ Məkkədə Ərqamın evində

olarkən dəvət gizli aparılırdı. İslama dəvət Məkkədə aşkar olduqdan sonra, möhtərəm səhabələr əvvəlcə qürbət diyarı Həbəşistana, sonra da Mədinəyə hicrət etdilər. Onlar öz yaxınlarını, mal-dövlət və vətənlərini tərk etmişdilər. Uzaq və çətin səfərlər zamanı onlar dəvə üzərində və ya piyada ikən onların halı barədə düşün. Onların hər biri Mədinə ətrafında Xəndək döyüşü zamanı qorxu və mühasirəni yaşamışdılar. Onlar imkanlı-imkansız hər kəslə əlaqələrinin kəsilməsinə məcbur edilərək amansız təcrid illəri yaşamışdılar. Onlar Bədr, Xəndək, Xeybər, Hüneyn, ondan sonra da Məkkə və başqa döyüşlərdə qələbə qazanmışdılar.

İndi də möminin nəfsinə müsbət təsirləri barədə düşün. Bəli, Allahın Elçisi ﷺ onlarla birlikdə ikən, zehnimizdə onlar arasında necə bir mərhəmət və dostluğun ola biləcəyini düşün. O, onların rəhbəri, tərbiyəçisi və müəllimi idi. Unutma ki, Quran göylərin və yerin Rəbbi olan Allah tərəfindən bu toplumun rəhbərinə nazil olunurdu.

Səhabələr barədə düşün – onların qəlbləri Allahın Elçisi ﷺ ətrafında birləşmişdi. Düşün ki, o qövmün qəlbləri Rəsulullahın ﷺ ətrafında birləşməklə hansı nəfsi təsirlərlə üzləşmişdi. Rəsulullah ﷺ onlara tərbiyə vermiş, onlarla birlikdə yaşamış, Quran da

həmin vaxt onlara nazil olmuşdu. Mənimlə birlikdə həmin anları və vaxtları təsəvvür et. “Rəsulullahın ﷺ səhabələri” adlı birinci risalədə bu barədə geniş söhbət açılmışdı.

Şəkk yoxdur ki, onların arasında yalnız məhəbbət, birlik və sevgi olmuşdur. Uca Allah buyurur: **“Allahın sizə olan nemətini xatırlayın ki, siz *bir-birinizə* düşmən idiniz, O, sizin qəlblərinizi birləşdirdi və Onun neməti sayəsində *bir-birinizlə* qardaş oldunuz...“** (Ali İmran, 103).

Zəhmət deyilsə, ayənin mənaları barədə düşün. Bu, Uca və Nöqsansız Allahın Rəsulullahın ﷺ səhabələrinə bir şahidlikdir ki, O, onların qəlblərini birləşdirmişdir. Bu, Uca Allahın Rəsulullahın ﷺ səhabələrinə əvəzi ödənilməyəcək bir minnətidir. Allahın bəxş etdiyi fəziləti heç kim rədd edə bilməz.

Bəli, Ovs və Xəzrəc qəbilələri arasında düşmənçilik alovları var idi. Lakin Uca və Nöqsansız Allah bu ədavəti aradan qaldıraraq onu məhəbbət və birliklə əvəz etdi.

Hörmətli oxucu. Buna iman gətirmək və Allahın Elçisinin ﷺ səhabələri barədə yaxşı zəndə olmaq heç kimə zərər verməz. Onların Rəbbi onlara şahidlik verir və onlar üzərindəki fəzilətini xatırladır. Buyurur ki, onlar qardaş oldular, qəlbləri saflaşdı və orada

sevgi və birlik hissləri qərar tutdu. Burada ibrət səbəbin xüsusiliyində deyil, ləfzin ümumiliyindədir. Aşağıdakı ayə də ümumidir. Uca Allah buyurur: **“Əgər onlar səni aldatmaq istəsələr, *bil ki,* sənə Allah yetər. O, səni həm Öz köməyi ilə, həm də möminlərlə qüvvətləndirdi. *Allah* onların qəlblərini birləşdirdi. Əgər sən yer üzündə olanların hamısını sərf etsəydin belə, onların qəlblərini birləşdirə bilməzdin. Lakin Allah onları birləşdirdi. Həqiqətən, O, Qüdrətlidir, Müdrikdir”** (əl-Ənfal, 62-63).

Hörmətli oxucu. Bu ayə barədə düşün və onu təkrar-təkrar mütaliə et. Burada Uca və Nöqsansız Allahın Rəsulullaha ﷺ bəxş etdiyi *möminlərlə yardım* fəziləti qeyd olunur. Burada diqqətimizi çəkən həm də odur ki, Peyğəmbər ﷺ yer üzünün bütün sərvətini sərf etmiş olsaydı belə, onların qəlblərini birləşdirə bilməzdi. Lakin Uca və Nöqsansız Allah fəzilət Sahibidir, istədiyini edir. Buna baxmayaraq, bütün bu sadalananları inkar edib dəlilləri qəbul etməyən kəslər vardır. Onlar iddia edirlər ki, Rəsulullahın ﷺ səhabələri arasında ədavət hökm sürmüşdür.

İzzət və Cəlal Sahibi Allah bizə xəbər verir ki, O, onların qəlblərini birləşdirmiş, onları qardaş etmiş, onları bir-birilərinə qarşı mərhəmətli etmişdir. Bütün bunlara rəğmən səhabələrin arasında

düşmənçiliyin olması barədə əfsanə və yalan xəbərlər təkrar olunur!

Səhabələri tərif edən, onların keyfiyyətlərini və əməllərini açıqlayan çoxlu ayələr vardır ki, onlardan bəzilərini qeyd etmişik. Bu da onlara sevginin təzahürlərindəndir.

Uca Allah buyurur: ***“Qənimət həmçinin* yurdlarından qovulmuş və mallarından məhrum olunmuş yoxsul mühacirlərə məxsusdur. Onlar Allahın mərhəmətini və razılığını qazanmağa can atır, Allaha və Onun elçisinə kömək edirlər. Doğru olanlar da məhz onlardır. *Mühacirlərdən* əvvəl *Mədinədə* yurd salmış, *sonra da* iman gətirmiş kimsələr öz yanlarına hicrət edənləri sevir, onlara verdiklərinə görə qəlblərində peşmançılıq hissi duymurlar. Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar. Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır”** (əl-Həşr, 8-9).

Qeyd olunanlar bəzi Quran ayələrinə işarədir. Biz yalnız məhəbbətə, onun mövcudluğuna və onun səhabələrin qəlbində qərar tutmasını təsdiq edən dəlillərlə kifayətləndik. Həmçinin, sənə gizli deyil ki, başqalarını özündən üstün tutmaq, qardaşlıq və qəlblərin birliyi kimi mənalar barədə Quranda dəlillər vardır ki, bunlar da sevginin mövcudluğuna aydın

işarədir. Bundan öncəki ayə barəsində də düşün, orada ənsarların mühacirləi sevmələri isbat olunur. əl-Fəth surəsinin sonuncu ayələri barədə də düşün.

Əlavə olaraq, Əli əl-Ərbilinin “Kəşf əl-ğummə” əsərindəki bu qissəni də təqdim edirik. “Bir dəfə Əli ibn Hüseynin yanına İraqdan bir neçə nəfər gəlib Əbu Bəkr, Ömər və Osman barəsində danışdılar. Söhbətlərini bitirdikdə, o (imam) onlardan soruşdu: “Bir mənə deyin görüm, siz [haqqında belə deyilmiş] əvvəlki mühacirlərdənsinizmi: ***“Qənimət həmçinin* yurdlarından qovulmuş və mallarından məhrum olunmuş yoxsul mühacirlərə məxsusdur. Onlar Allahın mərhəmətini və razılığını qazanmağa can atır, Allaha və Onun elçisinə kömək edirlər. Doğru olanlar da məhz onlardır”**? Onlar: “Xeyr” deyə cavab verdilər. O yenə soruşdu: “Bəlkə [haqqında belə deyilmiş] belələrindənsiniz: ***“Mühacirlərdən* əvvəl *Mədinədə* yurd salmış, *sonra da* iman gətirmiş kimsələr öz yanlarına hicrət edənləri sevir, onlara verdiklərinə görə qəlblərində peşmançılıq hissi duymurlar. Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar”?** Onlar yenə: “Xeyr” deyə cavab verdilər. O dedi: “Siz bu iki toplumdan olmadığınızı etiraf etdiniz, mən də şahidlik edirəm ki, siz Uca Allahın onlar haqqında

belə buyurduğu kəslərdən deyilsiniz: ***“Səhabələrdən*** **sonra gələnlər deyirlər: –Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə”.** Çıxın yanımdan, Allah sizə istədiyini etsin!”.[11]

Tabiinlərdən olan Zeynulabidin Əli ibn Hüseynə baxsanız, görərsiniz ki, bir çox kitablarda onların bir-birilərini tərif etmələri barədə dəlillər vardır. “Nəhc əl-bəlağə” əsərini öyrənən hər kəs bir sıra xütbələrdə səhabələrin tərif olunmasının şahidi olur. Onlardan Qurani-Kərimlə əlaqəli olan birini seçdim.

İmam Əli ﺭﺿﻲ ﺍﻟﻠﻪ ﻋﻨﻪ demişdir: “Mən Rəsulullahın ﷺ səhabələrini görmüşəm – sizlərdən heç kim onlara bənzəmir. Onlar gecəni qiyamda və səcdədə keçirdikləri üçün səhər toz içində, üst-başları dağınıq vəziyyətdə oyanardılar, alınları ilə yaxaları ibadətdə olardı. Onlar Qiyamət barədə düşünərkən sanki köz üzərində durmuş kimi dayanardılar. Uzun-uzadı səcdəyə qapandıqlarından alınlarının ortasında keçinin dizindəkinə bənzər bir iz var idi. Allah zikr olunduqda, onların yaxaları islananadək gözləri yaş axıdardı. Əzabdan qorxduqları və savab əldə etmək

[11] “Kəşf əl-ğummə” əsəri, 2-ci cild, 78-ci səhifə. İran nəşri.

istədikləri üçün, qasırğalı gündə əyilən ağac kimi əyilərdilər."

Onun səhabələri tərif etdiyi kəlamları olduqca çoxdur. Nəvəsi Zeynulabidin də dualar etməklə onları tərif etmişdir. İmamların hər birindən səhabələri tərif edən saysız sözlər rəvayət olunmuşdur. Allah onlardan razı olsun. Onlardan raşidi xəlifələri, möminlərin analarını və başqalarını tərif edən bir sıra sözlər nəql olunmuşdur ki, onları bir araya toplasaq, çoxcildli kitablar alınar.

Hörmətli oxucu. Xahiş edirəm üzrlü sayasan, əslində müxtəsər demək istəsəm də, bir az çox danışdım – əl-Kərim olan Allahdan diləyirəm ki, mənə və sənə bununla fayda versin. Lakin bunun üçün həqiqətin tam bəyan olunması gərəkdir. Ümid edirəm ki, mənimlə bir az da səbir edərsən – artıq risaləmizin yekunlaşmasına az qalıb. Yalnız əhli-sünnə val-cəmaə yanaşmasına görə əhli-beytin məqamı barədə danışmaq qalır.

Hörmətli oxucu, Uca Allah səni xeyirə müvəffəq etsin! Bil ki, Sünnə əhli daim Qurani-Kərimə (Allah kəlamına) əməl etməyə səy göstərir. Onlar həmçinin Rəsulullahın ﷺ əhli-beytinin də əlindən tutub gedirlər. Bu məsələ barəsində də xüsusi bir araşdırmaya ehtiyac var. Burada qeyd etdiklərimizdən məqsəd isə

heç bir ayrıseçkiliyə yol vermədən, bütün səhabələr arasında mərhəmətin olmasının üzə çıxarılması idi. Biz onlara əhli-beyti də, örtüyün altında olmuş xüsusi əhli-beyti də aid edirik. Araşdırdığımız növbəti məsələ əhli-sünnə alimlərinin söylədikləri kimi, əhli-beytin bəzi haqlarının bəyanı barəsindədir. Allah onların hamısına rəhmət eləsin.

## Sünnə əhlinin əhli-beyt (onlara salam olsun) barədə mövqeyi

**Lüğəti və istilahi mənaları.**

Əhli-beyt insanın ailə üzvlərinə deyilir. *“Təhhul”* sözü Xəlilin[12] dediyi kimi, ərəbcə evlənməyə deyilir. Ev əhli – orada yaşayanlar, İslam əhli isə ona inananlardır.[13]

Ailə sözünə gəlincə isə, “*Ali*” sözü “Məqayis əl-luğa” əsərində deyildiyi kimi, insanın ailəsi mənasındadır.[14]

---

[12] “əl-Ayn” kitabı, 4/89.
[13] “əs-Sihah”, 4/1628, “Lisan əl-ərəb”, 11/28.
[14] “Mucəm məqayis əl-luğa”, 1/161.

İbn Mənzur demişdir: "İnsanın ailəsi onun yaxınları, Allahın və Onun elçisinin yaxınları isə onun övliyalarıdır. Sonralar *"əhl"* sözündəki hə hərfi həmzə ilə əvəz olunmuş və *"əəl"* sözü alınmışdır. İki həmzə yanaşı gəldiyi üçün ikincisi əlifə[15] cevrilmişdir. *"Ali"* sözü yalnız şərəfli bir məqamda işlənir. Misal üçün, əl-Haik ailəsi dedikdə, *əhl əl-Haik* deyilir, *Alu-l-Haik* deyilmir.

İnsanın evi onun şərəfi və qərar tutduğu yeridir.[16] *"əl-beyt"* deyildikdə, Allahın evi Kəbə nəzərdə tutulur, çünki möminlərin qəlbləri ona tərəf meyl edir, nəfslər onunla sakitlik tapır və o, qiblədir. Cahiliyyət dövründə əhli-beyt deyildikdə, insanın evində yaşayanlar nəzərdə tutulurdu. İslam gəldikdən sonra isə əhli-beyt deyildikdə, Rəsulullahın ﷺ ailə üzvləri nəzərdə tutulur.[17]

---

[15] "Lisan əl-ərəb" (11/31) və İsfahaninin "Ğarib əl-Quran" əsəri (30).

[16] "Lisan əl-ərəb", 2/15.

[17] "əl-Mufradət fi ğarib əl-Quran", 29. Şeyxul-İslam İbn əl-Qeyyim (Allah ona rəhmət eləsin) bu barədə xüsusi kitabda "Cələ əl-əfham fis-saləti alə xayril ənam" əsərində uzun-uzadı söhbət açmışdır. Həmin kitabla və təhqiq edən alimin müqəddiməsi ilə tanış ol. O, bu xüsusda yazılmış müxtəlif kitabları da qeyd edir. Bu da Sünnə alimlərinin mövzuya nə qədər diqqət ayırdıqlarının göstəricisidir.

## Rəsulullahın ﷺ ailəsi deyildikdə kim nəzərdə tutulur

Alimlər əhli-beyt deyildikdə kimlərin nəzərdə tutulması barədə ixtilaf edərək müxtəlif fikirlər irəli sürmüşlər. Onlardan ən məşhurları aşağıdakılardır:

1. Cümhurun rəyinə görə, onlar sədəqənin haram olduğu kəslərdir.

2. Onlar Peyğəmbərin ﷺ zürriyyətidir və zövcələridir. İbn əl-Ərəbi “Əhkəm əl-Quran” əsərində bu rəyi dəstəkləyir. Ancaq bu rəydə olanlardan heç də hamısı zövcələri əhli-beytdən saymamışlar.

3. Peyğəmbərin ﷺ əhli-beyti Qiyamət gününədək ona tabe olanlardır. İmam Nəvəvi “Səhih Muslim”ə yazdığı şərhində bu rəyi dəstəkləmişdir. Həmçinin “əl-İnsaf” əsərinin müəllifi də bu rəydə olmuşdur. Bəzi alimlər bunu Peyğəmbərin ﷺ nəslindən olan ən təqvalı kəslərə şamil etmişlər. Daha doğru rəy birinci rəydir.

Bəzilərinə görə, Peyğəmbərin ﷺ ailəsi deyildikdə yalnız on iki imam nəzərdə tutulur. Onların da özlərinə məxsus açıqlamaları vardır ki, burada bu barədə

təfsilata varmaq istəmirik. Bu məsələ barəsində ixtilaf olduqca böyük olduğu üçün, təfriqə baş vermişdir.[18]

Sual: Sədəqə alması haram olan kəslər kimlərdir?

– Onlar Haşim oğulları və əl-Muttalib oğullarıdır. Bu, racih rəydir. Bu cümhurun rəyidir. Alimlərdən bəziləri onların əl-Muttalib oğullarına deyil, yalnız Haşim oğullarına şamil olduğunu bildirmişdir.

## Rəsulullahın ﷺ ailəsi məsələsində əhli-sünnənin əqidəsi

Əqidə məsələləri ilə bağlı qələmə alınmış elə bir kitab yoxdur ki, bu məsələni özündə əks etdirməsin. Çünki bu, olduqca mühüm bir məsələdir. Alimlər bunu etiqad məsələlərindən hesab etmiş, həm onun barəsində, həm də əhəmiyyətinə görə müstəqil risalələr yazmışlar.

Əlqərəz, əhli-sünnə vəl-cəmaənin əqidəsi Şeyxül-islam İbn Teymiyyənin "Əqidətul-vasitiyyə" əsərində dediyi kimidir. O (Allah ona rəhmət eləsin) demişdir:

---

[18] ən-Nəubəxtinin "Kitab əl-firaq" əsərinə bax.

"Onlar Peyğəmbərin ﷺ əhli-beytini sevir və onların tərəfini saxlayırlar. Onlar Ğadir Xum günü Rəsulullahın ﷺ verdiyi tövsiyələrə əməl edirlər. O ﷺ buyurmuşdur: *"Əhli-beytimi sizlərə xatırladıram, əhli-beytimi sizlərə xatırladıram"*.[19] Həmçinin Abbas رضي الله عنه Haşim oğulları ilə bəzi qüreyşlilərin yaxşı davranmaması barədə şikayət etdikdə, Rəsulullah ﷺ belə demişdir: *"Canım Əlində olan Allaha and olsun ki, Allah üçün, bir də mənimlə qohum olduğunuz üçün, sizi sevməyincə, iman gətirmiş olmazlar"*.[20] O ﷺ həmçinin demişdir: *"Şübhəsiz ki, Uca Allah İsmailin oğullarını seçmişdir, İsmailin oğullarından da Kənanəni seçmişdir. Kənanədən də Qureyşi seçmişdir, Qureyşdən də Haşim oğullarını seçmişdir, məni də Haşim oğullarından seçmişdir"*.[21]

Mən də bir çoxlarının əhli-beytə düşmən olduğunu iddia etdikləri imamın (İbn Teymiyyənin) bu sözləri ilə kifayətlənirəm.

---

[19] Hədisi Muslim və başqaları rəvayət etmişlər. "Səhabələrin fəziləti" kitabı, "Əli əleyhissalamın fəziləti" babı.

[20] Hədisi Əhməd "Səhabələrin fəziləti" əsərində rəvayət etmişdir. Kitabı təhqiq edən alim bu barədə geniş təfsilata varmışdır. Əsas odur ki, hədisin mənası səhihdir və ayə də ona dəlalət edir.

[21] Hədisi Muslim rəvayət etmişdir.

## Əhli-beyt haqlarının təfsilatı

**Birinci: Sevgi və dostluq haqqı**

Hörmətli oxucu. Sənə sirr deyil ki, hər bir mömin kişini və qadını sevmək şəri baxımdan vacibdir. Rəsulullahın ﷺ əhli-beytini sevmək və tərəfini saxlamaq da buna aiddir. Bu xüsusi bir sevgidir və heç kim onlarla bu məsələdə bərabər deyildir. Çünki Peyğəmbər ﷺ demişdir: *"... mənimlə qohum olduqları üçün..."*.

Allah üçün olan sevgi və dostluq iman dostluğu səbəbindən olanıdır ki, bu da ümumən müsəlmanlara xasdır. Müsəlman müsəlmanın qardaşıdır və bu bütün müsəlmanlara, o cümlədən Rəsulullahın ﷺ ailəsinə də şamil olunur. Peyğəmbərin ﷺ ailəsi üçün isə xüsusi bir sevgi olmalıdır, çünki onlar Allahın Elçisinin ﷺ yaxınları idilər. Uca Allah buyurur: **"De: –Mən sizdən bunun əvəzində qohumluq sevgisindən başqa bir şey istəmirəm"** (əş-Şura, 23). Bu da bir az əvvəl qeyd olunmuş hədisin səhih açıqlamasıdır. Belə ki, bəzi təfsir alimləri demişdir: "Sizinlə qohum olduğum üçün məni sevirsiniz. Çünki Allahın Elçisinin ﷺ Qureyşin bütün qəbilələrinə qohumluğu çatır. Burada məqsəd onların sevilməsi, dostluğunun saxlanılması və onlara hörmət edilməsidir. Bu da

Rəsulullaha ﷺ qohum olmalarının sabitliyinə görədir və bu ümumi müsəlmanların dost tutulması ilə eyni deyildir”.

**İkinci: Onlara salavat deyilməsi haqqı.**

Həmçinin, onlara salavat da deyilməlidir. Uca Allah buyurur: **“Doğrudan da, Allah və Onun mələkləri Peyğəmbərə xeyir-dua verirlər. Ey iman gətirənlər! Siz də ona xeyir-dua verib kamil ədəb-ərkanla salamlayın”** (əl-Əhzab, 56).

Muslimin “Səhih” əsərində Əbu Məsud əl-Ənsarinin رضي الله عنه belə dediyi rəvayət olunur: “Bir dəfə Səd ibn Ubədənin məclisində Rəsulullah ﷺ mənim yanıma gəldi. Bişr ibn Səd ona dedi: “Ey Allahın Elçisi, Uca Allah bizə əmr edib ki, sənə salavat deyək. Bəs sənə salavatı nə cür deyək?” Rəsulullah ﷺ bir anlığa susdu. Hətta təmənna etdik ki, kaş ki, o bu sualı heç verməzdi. Sonra Rəsulullah ﷺ buyurdu: *“Deyin ki, – Allahummə salli alə Muhəmməd va alə ali Muhəmməd, kəmə salleytə alə İbrahim, va barik alə Muhəmməd va alə ali Muhəmməd, kəmə barəktə alə İbrahim fil aləmin, innəkə Həmidun Məcid. Salam da bildiyiniz kimidir”.*[22]

---

[22] “Səhih Muslim”, “Namaz kitabı”, “Peyğəmbərə təşəhhüddən sonra salavat babı”, 1/305 (405).

Bu məsələdə Əbu Humeyd əs-Saidinin hədisinin səhihliyində də ittifaq edilmişdir. Buna bənzər dəlillər olduqca çoxdur. İbn əl-Qeyyim (Allah ona rəhmət eləsin) demişdir: "Bu, ümmətdən yalnız onların haqqıdır və bu barədə alimlər arasında ixtilaf yoxdur".[23] Salavat barədə bu qədər.

**Üçüncü: Xüms haqqı.**

Həmçinin, əhli-beytin xüms haqqı da vardır. Uca Allah buyurur: **"Bilin ki, ələ keçirdiyiniz qənimətlərin beşdə biri Allaha, Onun Elçisinə, onun qohum-əqrəbasına, yetimlərə, kasıblara və müsafirlərə məxsusdur"** (əl-Ənfal, 41). Bu xüsusda hədislər də çoxdur. Bu, qohumlarla bağlı xüsusi bir paydır. Həmin pay Peyğəmbərin ﷺ vəfatından sonra da onlara verilməlidir ki, bu da cümhurun rəyidir. Doğru olan rəy də elə budur.[24]

Fayda. Hüquqlar çoxdur və biz həmin haqlardan ən mühümlərinə işarə etdik. Müsəlmanlığı və nəsəbi

---

[23] İbn Qeyyim əl-Cövziyyə, "Cəla əl-əfhəm". O (Allah ona rəhmət eləsin) burada uzun-uzadı təfsilata varmışdır.

[24] Bax: "əl-Muğni", 9/288; Əhli-beytin haqları ilə bağlı Şeyxulislam İbn Teymiyyənin kiçik bir risaləsi. Əbu Turab əz-Zahiri də onu yüksək qiymətləndirmişdir.

sabit olanlar bu haqlara layiqdirlər, bunun üçün həm də gözəl əməllərin olması labüddür.

Rəsulullah ﷺ qohumluğa görə etimad göstərilməsindən çəkindirərdi. Məşhur bir hədisdə Peyğəmbərin ﷺ hələ Məkkədə ikən dedikləri də buna sübutdur. O demişdir: *“Ey Qureyşlilər! Özünüzü Allah üçün satın alın, mənim sizə Allah yanında bir faydam dəyməyəcəkdir. Ey Abbas ibn Əbdülmuttalib! Sənə Allah yanında bir faydam dəyməyəcəkdir! Ey Rəsulullahın bibisi Safiyyə, sənə Allah yanında bir faydam dəyməyəcəkdir. Ey Muhəmmədin qızı Fatimə! Mənim malımdan nə qədər istəyirsən istə, sənə Allah yanında bir faydam dəyməyəcəkdir”.* Hədisi Buxari rəvayət etmişdir. Peyğəmbərin ﷺ əmisi Əbu Ləhəbin başına gələnlər də sizə məlumdur. Cəhənnəm odundan Allaha sığınırıq!

## Əhli-sünnə vəl-cəmaənin *nasibilər* barədə mövqeyi

Biz əhli-sünnə vəl-cəmaə olaraq Rəsulullahın ﷺ ailəsinin məqamı barədə söhbətimizin yekunu olaraq *nasibilər* barədə də mövqeyimizi bildiririk. Bu da aşağıdakı kimidir:

***Nasb* sözü lüğəti baxımdan** bir şeyin qaldırılması mənasındadır. *Nasiyətuş-şərri val-hərb,* yəni şərin və müharibənin qaldırılması sözləri də bu mənadadır.

**İstilahi mənada** isə "Nasibilər" və "Nasb əhli" Əlinin ailəsinə nifrət edən və ona düşmənçilik edən dindarlara deyilir.

Adın əsası budur və əhli-beytə düşmənçilik edən hər kəs Nasibidir.

Hörmətli oxucu!

İmam Əlinin ﷺ və onun övladlarının tərif olunması ilə bağlı alimlər aydın bir mövqedədirlər. Əqidəmizə görə, biz şahidlik edirik ki, Əli, Həsən və Hüseyn Nəim cənnətlərindədirlər. Bu da, Allaha həmd olsun ki, bəlli bir məsələdir.

İndi isə Sünnə əhlinin nasibilər barədə mövqeyini, onlardan uzaqlığını bildirmək istəyirəm. Bu olduqca mühüm bir məsələdir. Çünki bu məsələ ümmət arasında ixtilaf və təfriqənin baş vermə səbəblərindəndir. Elələri vardır ki, yeri düşdü-düşmədi, hər fürsətdə ixtilafı və ayrıseçkiliyi artıran söhbətlər etməklə fitnəni alovlandırır. Bu azmış kimi, onlar öz sözləri ilə də bu alovun atəşini artırırlar. Əslində isə, bu söylədikləri yalan və böhtandan savayı bir şey deyildir.

Bir də görürsən ki, bəziləri əhli-sünnəni İmam Əliyə ﵁ və övladlarına nifrət bəsləməkdə ittiham edir. Buna görə o dilini işə salıb yalanlar uydurur, guya Sünnə əhlinin Əliyə düşmənçiliyini sübut edən uydurma hekayə və rəvayətlərdən istifadə edir.

Əksinə, əhli-sünnədə onların fəziləti barəsində bir sıra hədislər mövcuddur. Elə bir hədis kitabı tapa bilməzsən ki, orada İmam Əlinin fəzilətləri barədə bir bölməyə rast gəlinməsin.

Hörmətli oxucu.

Sünnə əhlinin nasibilər barədə mövqeyi aydındır. Mən yalnız şeyxulislam İbn Teymiyyənin bu xüsusda söylədiyi aşağıdakı sözlərlə kifayətlənirəm.

O, demişdir: “Əlini lənətlənməyi və ona nifrət etməyi ilə seçilən bir tayfaya *Bəğy əhli* (yəni haqqa qarşı çıxanlar) deyilmişdir. Necə ki, Buxarinin “Səhih” əsərində Xalid əl-Həzza İkrimədən rəvayət edərək demişdir: “İbn Abbas mənə və oğlu Əliyə belə dedi: – Gedin Əbu Səidin yanına və danışdıqlarını dinləyin! Biz də getdik, gördük ki, o, divar hörür. O, bürüncəyini geyindi və bizə danışmağa başladı. Gəlib məscidin inşa edilməsi məsələsinə çatdıqda dedi: “Bizlər kərpicləri bir-bir daşıyanda, Ammar iki-iki

daşıyırdı. Peyğəmbər ﷺ onu gördükdə gəlib onun üzərindəki torpağı təmizləyərək dedi: *"Vay Ammarın halına! Onu haqqa qarşı çıxan bir toplum qətlə yetirəcəkdir. O, onları cənnətə dəvət etdiyi halda, onlar onu cəhənnəmə dəvət edəcəklər"*. Ammar dedi: "Fitnələrdən Allaha sığınıram".

Muslim Əbu Səiddən رضي الله عنه onun belə dediyini rəvayət etmişdir: "Məndən daha xeyirli bir adam olan Əbu Qatədə mənə xəbər vermişdir ki, Rəsulullah ﷺ Xəndək qazıldığı vaxt Ammarın başını silərək ona belə demişdi: *"Bu ibn Sumeyyəni haqqa qarşı çıxan firqə qətlə yetirəcəkdir"*.

Həmçinin Muslim Ummu Sələmədən Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir ki, *"Ammarı haqqa qarşı çıxan firqə öldürəcək"*.

Bu da Əlinin رضي الله عنه imamlığının səhihliyinə, ona itaət olunmasının vacibliyinə dəlalət edir. Ona (Əliyə) itaətə səsləyən Cənnətə, onunla vuruşmağa çağıran isə, hətta özünəməxsus izahı olsa belə, Cəhənnəmə çağırır. Beləliklə, ona (Əliyə) qarşı vuruşan, düzgün hesab etdiyi dəlilləri olsa və ya olmasa belə, səhvdir, bu da alimlərimizin iki rəyindən daha səhih olanıdır. Bu hökm Əliyə qarşı vuruşanların səhv mövqedə olduqlarını isbat edir. Bu məsələni əhatəli açıqlayan və haqqın əleyhinə çıxanlara qarşı vuruşmağın gərək

olduğunu bildirən böyük fiqh alimlərinin də rəyi belədir.[25]

Şeyxulislam İbn Teymiyyə (Allah ona rəhmət eləsin) Sünnə əhlinin Yezid barədə mövqeyi haqqında da uzun-uzadı danışaraq məsələni xırdaladıqdan və bu xüsusdakı ixtilafı qeyd etdikdən sonra demişdir: "Hüseyni isə kim öldürübsə və ya onun qətlinə yardım edibsə, yaxud bundan razı qalıbsa, Allahın, mələklərinin və bütün insanların lənəti onun üzərinə olsun."[26]

Bu, sələf alimlərindən yalnız birinin sözüdür. Bundan sonra hər hansı bir xütbə verən, yaxud elmi olan kəs əhli-sünnəyə tənə edərək onları nasibi adlandıra bilərmi?

## Dayanma

Əziz qardaşım. Ola bilsin ki, bu risalədə oxuduqların və tarixi mənbələrdən varid olmuş səhabələr arasında baş vermiş Sıffin və Cəməl döyüşləri kimi məsələlər səndə bir sıra suallar yaratsın. Belə ki,

[25] Şeyxulislam İbn Teymiyyə. "Məcmu əl-fətava", 4/437.
[26] Şeyxulislam İbn Teymiyyə. "Məcmu əl-fətava", 4/487.

döyüşən hər iki tərəfdə onlardan iştirak edən olub, ancaq səhabələrin əksəriyyəti Əli ilə birlikdə olub. Bu barədə xüsusi bir risaləyə ehtiyac vardır. Allahdan diləyirəm ki, həmin həqiqətlərin meydana çıxması üçün həmin risalənin də yazılmasında mənə yardımçı olsun.

Uca və Nöqsansız olan Allahın bu ayəsini həm özümə, həm də sizlərə xatırladıram: **“Əgər möminlərdən iki dəstə bir-biri ilə vuruşsa, onları barışdırın. Əgər onlardan biri digərinə qarşı təcavüz etsə, təcavüzkar dəstə ilə, o, Allahın əmrini** ***yerinə yetirməyə*** **qayıdanadək, vuruşun. Əgər o qayıtsa, hər iki dəstəni ədalətlə barışdırın və insaflı olun. Sözsüz ki, Allah insaflıları sevir. Möminlər, həqiqətən də qardaşdırlar...”** (əl-Hucurat, 9-10-cu ayələr).

Beləliklə, Allah möminlərin arasında döyüş baş verməsinə rəğmən onları imanla vəsf etmişdir. Ayənin mənası gün kimi aydındır və əlavə şərhinə ehtiyac yoxdur – aralarında döyüş baş versə belə, onlar mömindirlər.

Həmçinin Uca və Nöqsansız Allah buyurur: **“Əgər qardaşı tərəfindən bir şeylə əfv edilsə, onda insafla davranılmalıdır...”** (əl-Bəqərə, 178). Bu, qəsdən adam öldürülməsinə aiddir. Uca və Nöqsansız Allah qatillə öldürülənin yaxınları arasında

iman qardaşlığının mövcudluğunu isbat etmişdir. Beləcə qətlin ağır cəzası onları iman dairəsindən kənara çıxarmamışdır. Onlar öldürülənin yaxınları ilə qardaşdırlar. Uca Allah buyurur: **“Həqiqətən möminlər qardaşdırlar”.**

Mövzu ilə bağlı, söyləndiyi kimi, ayrıca bir risaləyə ehtiyac vardır. Ümid edirik ki, yaxın vaxtlarda onu hazırlamaqda Uca Allah bizə yardım edəcəkdir.

## Son söz

Allaha həmd olsun ki, bizlərə Peyğəmbəri ﷺ və onun ailəsini sevməyi nəsib etməklə lütf etmişdir.

Əzizim qardaşım.

Rəsulullahın ﷺ pak ailəsi (Allahın salavatı və salamı onların üzərinə olsun) və xeyirli səhabələri ilə (Allah onlar hamısından razı olsun) birlikdə yaşadıqdan sonra, onların öz aralarında necə rəhmli olmaları, aralarındakı qohumluq əlaqələri, mərhəmət, qardaşlıq və qəlb yaxınlığı bizə bəlli oldu. Uca Allah bunları Qurani-Kərimdə bildirmişdir...

Biz gərək aləmlərin Rəbbi olan Allaha dua edək ki, bizləri sevib razı qaldığı əməllərə müvəffəq etsin

və bizləri Qurani-Kərimdə mühacir və ənsarları tərif etdikdən sonra buyurduğu kəslərdən etsin. Nöqsansız Allah buyurur: ***“Səhabələrdən* sonra gələnlər deyirlər: “Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən də, Sən Şəfqətlisən, Rəhmlisən!”**

Zeynulabidin necə də gözəl demişdir: Bir dəfə imamın yanına İraqdan bir neçə nəfər gəlib Əbu Bəkr, Ömər və Osman barəsində danışdılar. Söhbətlərini bitirdikdə o (imam) onlardan soruşdu: “Bir mənə deyin görüm, siz [haqqında belə deyilmiş] əvvəlki mühacirlərdənsinizmi: ***“Qənimət həmçinin* yurdlarından qovulmuş və mallarından məhrum olunmuş yoxsul mühacirlərə məxsusdur. Onlar Allahın mərhəmətini və razılığını qazanmağa can atır, Allaha və Onun elçisinə kömək edirlər. Doğru olanlar da məhz onlardır”**? Onlar: “Xeyr” deyə cavab verdilər. O yenə soruşdu: “Bəlkə [haqqında belə deyilmiş] belələrindənsiniz: “**Mühacirlərdən əvvəl *Mədinədə* yurd salmış, *sonra da* iman gətirmiş kimsələr öz yanlarına hicrət edənləri sevir, onlara verdiklərinə görə qəlblərində peşmançılıq hissi duymurlar. Hətta özləri ehtiyac içində olsalar**

**belə, onları özlərindən üstün tuturlar"?** Onlar yenə: "Xeyr" deyə cavab verdilər. O dedi: "Siz bu iki toplumdan olmadığınızı etiraf etdiniz, mən də şahidlik edirəm ki, siz Uca Allahın onlar haqqında belə buyurduğu kəslərdən deyilsiniz: ***"Səhabələrdən* sonra gələnlər deyirlər: –Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə".** Çıxın yanımdan, Allah sizə istədiyini etsin!".[27]

Dəlillər nə qədər aydın və zahirdə olsa belə, düzgün seçim etməkdə insan İzzət və Cəlal Sahibi Rəbbinə möhtacdır. Məlumdur ki, İzzət və Cəlal Sahibi Allah öz elçisinə ﷺ möhtəşəm möcüzələr, o cümlədən "Açıq-aydın", "Nur" kimi vəsf etdiyi Qurani-Kərimi bəxş etmişdir. Rəsulullahın ﷺ gözəl əxlaqına, güclü açıqlamasına, səlis danışığına və doğruluğuna, habelə uşaqlığından onu yaxşı tanımasına rəğmən, Məkkə əhlinin əksəriyyəti fəthə qədər öz küfrlərində qaldı. Gərək bizlər dualarımızda müvəffəqiyyəti, harada olursa-olsun, haqq üzərində sabitliyi və ona tabe olmağı diləyək, çünki hidayət yalnız İzzət və Cəlal Sahibi Allahdandır.

---

[27] "Kəşf əl-ğummə" əsəri, 2-ci cild, 78-ci səhifə. İran nəşri.

Möhtərəm qardaş.

Unutma ki, sən Allahın sənə əmr etdiklərinə görə məsulsan və buna görə Allah səni hesaba çəkəcək. İnsanlardan kiminsə sözünü Uca və Nöqsansız Allahın sözündən üstün tutmaqdan çəkin. Allah sənə Quranı aydın ərəb dilində nazil etmiş, onu möminlər üçün hidayət və şəfa, başqaları üçün isə korluq etmişdir. Nöqsansız Allah buyurur: “**De: – O, iman gətirənlərə doğru yol göstəricisi və şəfadır”. İman gətirməyənlərin isə qulaqlarında tıxac vardır. Onlar ona qarşı kordurlar”** (Fussilət, 44). Bu Qurana tabe ol və onu gözlərinin önündən kənar qoyma. Allah səni razı qaldığı əməllərə müvəffəq etsin.

Ey mübarək kimsə. Bütün məxluqatın haqq-hesabını Uca və Nöqsansız Allah çəkəcəkdir. Bu insanların işi deyil. Əməlisaleh insanlar müəyyən şərtlərlə şəfaət verə biləcəklər. Biz gərək Uca və Nöqsansız Allaha qarşı lovğalıq etməkdən və Onun bəndələrinə hökm verməkdən çəkinək.

Rəsulullahın ﷺ həm əhli-beytini, həm də səhabələrini (Allah onlardan razı olsun) sevmək bizə zərər gətirməz. Əksinə, bu həm Qurani-Kərimə, həm də səhih rəvayətlərə müvafiqdir. Odur ki, düşün.

Sonda isə...

Gəlin Uca və Nöqsansız Allaha dua edək ki, qəlbimizdə bizdən qabaq iman gətirmişlərə qarşı kinə yer verməsin, bizə haqqı göstərsin, bizlərə nəfslərimiz və şeytan üzərində yardımçı olsun. Şübhəsiz ki, O, buna Qadirdir.

Daha doğrusunu Allah bilir.

Peyğəmbərimiz Muhəmmədə, onun ailəsinə və səhabələrinə Allahın salavatı və salamı olsun.

# Əlavə.

## Haşimi əhli-beyt ilə Cənnətlə müjdələnmiş on səhabənin bəziləri arasındakı qohumluq əlaqələri

| | Haşimi ailəsi | Başqaları | Mənbələr |
|---|---|---|---|
| 1 | Rəsulullah ﷺ | Aişə bint əs-Siddiq<br>Həfsa bint Ömər<br>Ramlə bint Əbu Sufyan | Bütün mənbələr |
| 2 | Ömər ibn əl-Xəttab | Ummu Kulsum bint Əli | Bir çox mənbələrdə keçir, biz onları qeyd etmişik |
| 3 | Fatimə bint əl-Hüseyn | Abdullah ibn Amr bin Osman bin Əffan | İbn Taqtaqi, "əl-Aslu fi ənsab ət-talibin" əsəri, 65-ci səhifə. İbn Utbə, "Umdət ət-talib fi ənsab Ali ibn Əbi Talib" əsəri, 118-ci səhifə və başqaları. |
| 4 | Safiyyə bint Əbdül-Muttalib (Peyğəmbərin ﷺ bibisi) | əl-Əvvam bin Xuveylid. İslamdan öncə ondan Zubeyr bin əl-Əvvamı dünyaya gətirmişdir. | Bütün mənbələr |
| 5 | Ummul-Həsən bint əl-Həsən bin Əli bin Əbu Talib | Abdullah ibn Zubeyr onunla evlənmiş və ölənədək onunla yaşamışdır. Qətlindən sonra isə qardaşı Zeyd onunla evlənmişdi. | Abbas əl-Qummi, "Muntəhal-amal" əsəri, 341-ci səhifə. Muhəmməd əl-Əalə, "Təracim ən-nisa" əsəri, 346-cı səhifə və başqaları. |
| 6 | Ruqayyə bint əl-Həsən bin Əli bin Əbu Talib | Amr bin əz-Zubeyr ibn əl-Əvvam onunla evlənmişdi | Abbas əl-Qummi, "Muntəhal-amal" əsəri, 342-ci səhifə. Muhəmməd əl-Əalə, "Təracim ən-nisa" əsəri, 346-cı səhifə. |
| 7 | əl-Hüseyn əl-Əsğar bin Zeynulabidin | Xalidə bint Həmzə bin Musab ibn əz-Zubeyrlə evlənmişdi. | Muhəmməd əl-Əalə, "Təracim ən-nisa" əsəri, 341-cı səhifə |

Buna bənzər misallar hədsiz çoxdur. Onlardan Hüseynin qızı Səkinənin Musab ibn əz-Zubeyr ilə evlənməsi hekayəsi o qədər məşhurdur ki, bu barədə təfsilata varmağa ehtiyac yoxdur. Qohumluq əlaqələrini araşdıran kəs bu barədə cildlərlə kitab yaza biləcək qədər məlumat toplaya bilər.

# "Əhli-beyt və səhabələr birliyi"nin nəşrləri

**Əhli-beyt və səhabələrin həyatı silsiləsi:**

1. "Tamam əl-ala fi sirati seyyidiş-şuhəda Həmzə bin Əbdül-muttalib ﷺ".
2. "Şəzal-yasimin fi fədail ummahət əl-muminin".
3. "İmam əl-Həsən əl-Musənnə və oğlu Abdullahın şərəfli və təravətli həyatı".
4. "əl-Ğusnun-nəda fi siratil-imam əl-Həsən bin Əli (Allah onlardan razı olsun)".

**Səhabələrlə əhli-beyt arasındakı gözəl münasibətlər silsiləsi:**

1. "Əhli-beytlə səhabələr arasındakı gözəl münasibətlər".
2. "Öz aralarında mərhəmətlidirlər... (Peyğəmbərin ﷺ əhli-beyti ilə səhabələri arasında mərhəmət)"
3. "Quran və əhli-beytin Allahın dostları barədə söylədikləri".
4. "Əhli-beytlə səhabələr arasında ad və qohumluq əlaqələri".
5. Əlavələr. "Cəfəri Sadiqin: "Əbu Bəkr məni iki dəfə dünyaya gətirmişdir" sözünə dair. Əhli-beytlə Əbu Bəkr əs-Siddiq arasındakı qohumluq əlaqələri (Allah onların hamısından razı olsun), əhli-beyt və səhabələr qohum idilər və bir-birilərini sevirdilər.

**İslami maariflənmə məsələləri silsiləsindən:**

1. "Rəsulullahın ﷺ səhabələri".
2. "Nəhc əl-bəlağə" əsərinin doğru oxunuşu.